

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 dekabr 2025-ci il №87 (2996) https://mod.gov.az Qiymәti 30 qəpik


## Heydər Əliyev Azərbaycan Ordusunun qurucusudur

***Müasir Azərbaycan dövlətinin qurtuluş və inkişaf dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın hərtərəfli inkişafına, qüdrətlənməsinə öz böyük töhfəsini verərək, onun gələcəyinin inkişaf strategiyasını müəyyən edib. Məhz Azərbaycan Ordusunu da müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev formalaşdırmışdır.***



Müasir dünyamızda baş verənlər onu təsdiqləyir ki, güclü ordusu olmayan dövlətlər müstəqil siyasətlərini həyata keçirməkdə çətinlik çəkir. Müasir müstəqil Azərbaycanda ordu quruculuğunun əsasını dahi şəxsiyyət, xalqımızın Ümummilli Lideri Heydər Əliyev qoymuşdur. Hərb tariximizə nəzər salaq. Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut etdikdən sonra ölkəmizdə ordu quruculuğu prosesi dayandı və yalnız Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişindən sonra onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi başlandı. Bu gün yarım əsrdən çoxdur ki, Bakıda yaradılan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin təməli də Ümummilli Lider tərəfindən qoyulub. Həmin məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, azərbaycanlı zabit kadrların hazırlanmasına gətirib çıxardı. Təsadüfi deyil ki, C.Naxçıvanski adına Hərbi Lisey Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi. Sonralar Ulu Öndər deyirdi: "Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm".

(Ardı 3-cü səhifədə)

## Prezident İlham Əliyev Laçının işğaldan azad olunmasının ildönümü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçının işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda "Zəfər Tariximiz: 1 Dekabr 2020-ci il Laçın" sözləri yer alıb.

## Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin məhsulları Qahirədə 4-cü EDEX sərgisində nümayiş olunur




Misir Prezidenti Əbdülfəttah əs-Sisinin iştirakı ilə bu gün Qahirədə 4-cü beynəlxalq Müdafiə və Təhlükəsizlik Sənayesi Sərgisinin (EDEX 2025) açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, dekabrın 4-dək davam edəcək sərgiyə 100-dən çox ölkədən rəsmi və diplomatik nümayəndə heyətləri də qatılıb. Sərgidə təxminən 45 min ziyarətçinin olacağı ehtimal edilir. Azərbaycan müdafiə sənayesi naziri Vüqar Mustafayevin rəhbərliyi ilə nümayəndə heyəti, eləcə də ölkəmizin Misirdəki səfiri Elxan Poluxov tədbirdə iştirak ediblər.

Sərgidə dünyanın 50 ölkəsini təmsil edən 450-dən çox şirkətin məhsulları nümayiş olunub. Azərbaycan stendində isə Müdafiə Sənayesi Nazirliyinin məhsulları təqdim edilib.

Afrika və Yaxın Şərqdə silahlanma və müdafiə sahələrində böyük tədbir sayılan sərgiyə 25 ölkə milli pavilyonları ilə qoşulub.

Qeyd edək ki, EDEX sərgisi ilk dəfə 2018-ci ildə keçirilib.

## İstismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatları məhv ediləcək




Dekabrın 1-dən 5-dək Pirəkəşkül qəsəbəsi yaxınlığındakı poliqonda, həmçinin Ağdərə rayonu ərazisindəki təlim mərkəzində istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla məhv edilməsi prosesi həyata keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirlik partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsas olmadığını diqqətə çatdırır.

## ATƏT-in Minsk qrupunun fəaliyyəti dayandırıldı




Azərbaycanın və Ermənistanın ATƏT-in Finlandiya Sədrliyinə birgə müraciətindən sonra təşkilat Nazirlər Şurasının 2025-ci il sentyabrın 1-də qəbul edilmiş qərarına uyğun olaraq 2025-ci il noyabrın 30-da saat 23:59-da Minsk Prosesi və onun əlaqədar strukturlarının bağlanmasını yekunlaşdırdı.

AZƏRTAC xəbər verir ki, bu barədə ATƏT-in bəyanatında bildirilib.

Qeyd edilib ki, bütün zəruri inzibati prosedurların başa çatdırılması bağlanma prosesinin başa çatması deməkdir. Bu proses 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın imzaladığı və ABŞ Prezidenti Donald Trampın da şahidi olduğu tarixi Birgə Bəyannamənin ardınca ATƏT-in bütün 57 iştirakçı dövlətinin 1 sentyabr tarixli konsensus qərarını həyata keçirdi.

## Müntəzəm fiziki hazırlıq həm də yüksək döyüş hazırlığıdır



"İdman sağlamlığın rəhnidir", deyiblər. Biz bunu həyatın bütün sahələrində də hiss edirik, duyuruq. İdmanla məşğul olan hər kəsin görkəmində, hərəkətində və düşüncəsində sağlamlıq görürük. Bunu gənclərdə, hərbi xidmətdə olanlarda daha çox müşahidə edirik. Bir çox gənclər könüllü olaraq idmanın istədiyi növünü seçir və peşəkar idmançı olmağı qarşısına məqsəd qoyur. Bəziləri də idmana hobbi kimi yanaşırlar. Hər iki yanaşma doğrudur. Çünki insanı sağlam və gümrah edir.

(Ardı 4-cü səhifədə)

## Ötən ay 6 min 443 hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən noyabrda icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 575, tank əleyhinə 208 mina, 6 min 510 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Qeyd edilib ki, noyabr ayı ərzində 6 min 443,9 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası çərçivəsində görüş keçirilib



Bakıda "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında 16-cı Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası" Protokolunun müvafiq maddəsinin icrası ilə əlaqədar görüş keçirilib.

Nümayəndə heyətlərinə general-leytenantlar Azər Əliyev və Ali Osman Yurdagül rəhbərlik ediblər.

Qonaqları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edən general-leytenant A.Əliyev Azərbaycan və Türkiyə arasındakı qardaşlıq və dostluq prinsipi əsasında hərbi sahədə də qurulan əlaqələrin bu gün yüksələn xətlə davam etdiyini bildirib.

General-leytenant A.O.Yurdagül də öz növbəsində səmimi münasibət və göstərilən diqqətə görə minnətdarlığını bildirib, keçirilən qarşılıqlı görüşlərin hər iki ordu arasında təcrübə mübadiləsinə böyük töhfə verdiyini qeyd edib.



Görüş əsnasında əməkdaşlıq çərçivəsində hərbi, hərbi-texniki və digər sahələrdə görülən işlərin cari vəziyyətinə toxunulub.

Azərbaycan və Türkiyə arasındakı hərbi əlaqələrin perspektivləri, inkişaf istiqamətləri, eləcə də qarşılıqlı maraq doğuran mövzulara dair geniş müzakirələr və fikir mübadiləsi aparılıb.

## Hərbi vəzifəlilərlə təlim toplanışı keçirilib







Cari ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində XTQ-nin "N" hərbi hissəsində ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlilərlə növbəti təlim toplanışı keçirilib.



Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə hərbi vəzifəlilərlə sinif məşğələləri təşkil edilib, onlara nizamnamələr və təhlükəsizlik qaydaları öyrədilib. Daha sonra təlim mərkəzində iştirakçılarla fiziki hazırlıq, taktiki-xüsusi hazırlıq və kəşfiyyat hazırlığı üzrə məşğələlər yerinə yetirilib.

Qeyd edək ki, təlim toplanışının əsas məqsədi ehtiyatdan çağırılan hərbi vəzifəlilərin döyüş hazırlığının yüksəldilməsi, onlara yeni hərbi biliklərin öyrədilməsi, eləcə də praktiki vərdişlərinin təkmilləşdirilməsidir.



## ƏÜO-da inspeksiya yoxlamaları zamanı bölmələrin fəaliyyəti yüksək qiymətləndirilib







2025-ci ilin hazırlıq planına əsasən, Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyası tərəfindən Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) ilin yekunlarına dair keçirilən yoxlamalar zamanı hərbi hissə və bölmələrin uğurlu fəaliyyəti yüksək qiymətləndirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, yoxlamalar çərçivəsində bölmələrin həyəcan siqnalı ilə qaldırılması zamanı fəaliyyəti, qərargah fəaliyyəti, döyüş hazırlığı, komandir hazırlığı, ümumqoşun hazırlığı və maddi-texniki təminat vəziyyəti yoxlanılıb, şəxsi heyətdən müxtəlif hazırlıqlar üzrə məqbullar qəbul edilib, atıcı silahlardan və artilleriya vasitələrindən praktiki atışlar yerinə yetirilib, maddi tədris bazasının yoxlanılması məqsədilə sıra baxışları keçirilib.



Hərbi qulluqçuların taktiki-xüsusi hazırlıq üzrə məşğələləri, eləcə də komando bölmələrinin dağ komando qülləsində və kəşfiyyat cığırında fəaliyyətləri izlənilib.

Hərbi qulluqçular müasir texniki vasitələrdən istifadə edərək qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Azərbaycan Ordusunda inspeksiya yoxlamalarının nəticələri və hərbi qulluqçuların peşəkarlığı müsbət qiymətləndirilib.

# Heydər Əliyev Azərbaycan Ordusunun qurucusudur

(Əvvəli 1-ci səhifədə)

Dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin bu sahəyə qayğısı sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də keçmiş Sovet İttifaqının digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail oldu. Dahi liderin təşəbbüsü ilə o dövrdə hazırlanan hərbi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli ordusunun peşəkar zabit heyətinin əsasını təşkil etdi. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra milli ordunun yaradılması qarşıya qoyulan ən vacib və prioritet məsələlərdən olmuşdur. Ordu quruculuğuna yalnız 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra başlanıldı. Müstəqilliyimizin ilk illərində mövcud ictimai-siyasi gərginlik digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də uğursuzluqlara səbəb olmuşdu. Həmin dövrdə yenicə formalaşmaqda olan milli ordu qüvvələri torpaqlarımızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəçisinə çevrilmişdi. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı bu sahədə də mövcud vəziyyətin yaxşılaşdırılmasına, vahid komandanlığın yaradılmasına, ordunun maddi-texniki bazasının formalaşdırılmasına, gənclərdə vətənpərvərlik hissinin daha da yüksəlməsinə böyük stimul oldu.



Ümummilli Liderin 22 may 1998-ci il tarixli Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun ölkəmizdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biridir. Ordumuzun əbədiyaşar komandanı Ulu Öndər Heydər Əliyevin Azərbaycanın dövlət rəhbəri kimi fəaliyyətinin ən yüksək xarakterik tərəflərindən biri bu idi ki, o, daxili hərbi-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, xalqın birliyinin təmin edilməsinin əhəmiyyətini düzgün qiymətləndirdi və onların əldə edilməsinə də nail oldu. Elə bir xalq ola bilməz ki, ən azı onun böyük əksəriyyəti daxili ictimai-siyasi sabitliyin, əmin-amanlığın bərqərar olmasını istəməsin. Lakin ölkə daxilində bu sabitliyin təmin edilməsi, bununla da quruculuq işlərinin, o cümlədən ordu quruculuğunun həyata keçirilməsinə zəruri şərait yaradılması üçün əsaslandırılmış dövlət siyasəti lazımdır. "Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Azərbaycan dövlətinin apardığı siyasət, əməli fəaliyyət bundan ibarətdir. Bunun üçün və gələcəkdə dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır. Biz ordu quruculuğu işi ilə məşğul oluruq... Azərbaycanın müstəqilliyini əbədi etmək üçün güclü və daim təkmilləşən, güclənən milli ordumuz olmalıdır. Bu, bizim müqəddəs vəzifəmizdir, hər bir kəsin şərəfli vəzifəsidir", - deyən Ümummilli Lider Heydər Əliyevin respublikada daxili hərbi-siyasi sabitliyin təmin edilməsi sahəsindəki fəaliyyəti bu zərurətin əyani təzahürü idi. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dünyanın ən güclü orduları sırasında yer alan Azərbaycan Ordusunun həm silah arsenalı, həm də maddi-texniki bazası genişlənir, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşır, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu daha da yüksəlir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin daxili siyasəti Azərbaycanın dinamik iqtisadi inkişafına, xarici siyasəti torpaqlarımızın işğaldan azad edilməsinə və dünya dövlətlərinin ədaləti dəstəkləməsinə, işğalçının işğalçı kimi tanınmasına istiqamətləndi və bunu da bacardı. Cəmi 44 gün davam edən Vətən müharibəsində Ermənistan ordusunun "məğlubedilməz mifi" darmadağın oldu, hərbi texnikası, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi. Azərbaycan Ordusunun hazırkı səviyyəsi ordu quruculuğu sahəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən ordu quruculuğu siyasətinin tamamilə doğru olduğunu bir daha sübut edir. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün tapşırıqları icra etməyə qadir olan, dünyada müasir silahlarla təchiz edilmiş və yüksək döyüş qabliyyətinə malik güclü, qüdrətli, qalib, Böyük Zəfər qazanmış ordularındandır.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# Qanla yazılan tariximizi varlığımızla qoruyuruq

*Müasir ordunun inkişafını təmin edən əsas nüanslardan biri onun təcrübəli, bacarıqlı və cəsur kadr potensialı ilə komplektləşməsidir. Məlumdur ki, ordu təkcə struktur və ya mexanizm deyil. Ordu xalqın güvən yeri, dövlətin isə varlığının qarantıdır. Şəxsi heyət isə ordunun vuran əli və onun güc tərəzisidir. Ordu həyatının hər saniyəsi hərbi xidmət adlanır. Hərbi xidmət hər bir insan üçün fiziki və mənəvi təkamül məktəbi hesab olunur. Bu məktəbdə hərbi intizam, fədakarlıq və birlik keyfiyyətləri hər bir Vətən övladına aşılanır. Buna görə də ordu ölkənin döyüşaparma və özünümüdafiə gücü olmaqla yanaşı, vətənpərvərlik ocağıdır.*

Son illər rəşadətli Azərbaycan Ordusunun keçdiyi inkişaf yolu və yazdığı Zəfər salnaməsi bir daha təsdiqlədi ki, güclü strategiya, müasir hərbi texniki təminat və peşəkar kadr heyəti ilə təşkilatlanması ordu quruculuğu sahəsində görülməsi vacib işlərdən biridir. Görülən işlərin məntiqi və tarixi nəticəsidir ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Zəfər tarixi yaşadıq. Tarixi qələbənin qazanılması və əzəli torpaqlarımızın işğaldan azad olunması hər bir soydaşımızın qəlbindəki nisgilə son qoydu, hər kəsdə böyük ruh yüksəkliyi yaratdı. Qazanılan Zəfər gələcək nəsil üçün sülh dolu bir gələcək reallığının əsasını qoydu.

"N" hərbi hissəsində kapitan Kənan Zamanovla tanış olduq. Kənan 1997-ci il iyulun 16-da Şirvan şəhərində anadan olub. Hələ kursantlıq dövründə 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbə onun üzərində daşıdığı hərbi mundirin önəmini və müqəddəsliyini ona dərk etdirib. 2018-ci ildə "leytenant" rütbəsi ilə ordu sıralarında xidmətə başlayan kapitan Zamanov haqq savaşımızın iştirakçısı olmaq arzusu ilə alışıb yanıb. Qismət elə gətirib ki, vətənpərvər zabitimiz 2020-ci il sentyabrın 27-də başlayan əks-hücum əməliyyatının iştirakçısı olub. "Qürur duyuram ki, qalib xalqın övladı, şanlı ordunun zabitiyəm. Bu gün müasir ordumuzun nümayəndəsi olaraq xalqın sevgisi, Ali Baş Komandanın misilsiz diqqəti ilə əhatələnmişik. Güclü ordunun mənsubu olaraq, tarixi Zəfər qazandıq, atalarımızdan bizə miras qalan, üzərində yaşadığımız, yaratdığımız Vətən torpaqlarını varlığımızla qoruduq. İşğaldan azad olunan əzəli və əbədi torpaqlarımızda dalğa-



lanan şanlı üçrəngli bayrağımız, şəhidlərimizin qisası, suverenliyimizin rəmzi olaraq şərəflə dalğalanar. Vətən qan ilə suvarılır, igid oğulları möhkəm çiyinlərində Vətən var olur. Bütün dünya Vətən məfhumunu Azərbaycan Ordusunun igid əsgərləri hesabına bir daha dərk etdi. Dərk etdi ki, mövzu haqq-ədalət, Vətən sevgisidirsə, o döyüşçünün qarşısında heç bir manea ola bilməz. Bütün dünya Vətən naminə, xalq naminə şərəflə döyüşün nə olduğunun şahidi oldu. Tariximiz əbədi Zəfərlə taclandı. Allah bütün şəhidlərimizin məkanını əbədi cənnət etsin. Onların canı və qanı ilə yazdığı tarixi bu gün varlığımızla yaşadırıq. Yaşadıb, gələcək nəsillərə ötürürük ki, onlar da bu Vətəni layiqincə qorusun, şəhidlərimizin ruhlarını daim uca tutsunlar", - zabit dedi.

Gənc zabitimizlə söhbət əsnasında öyrənirəm ki, kapitan Zamanov Kənan Vurğun oğlu döyüşlərdə qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəldiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Hərbi xidmətlərə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub. O, 44 günlük haqq savaşımızdan sonra antiterror əməliyyatında da iştirak edib.

Tarixi qələbələrimizin qazanılmasında əsas rol oynayan amillərdən biri müasir ordu, vətənpərvər və peşəkar şəxsi heyət olduğunu qeyd edən müsahibim bu gün də öz bilik və bacarıqlarını artırmaq üçün ölkə daxilində və onun hüdudlarından kənarda keçirilən müxtəlif kurslarda iştirak etdiyini bildirdi. "Hər bir xalqın tarixində öz igidliyi və cəsarəti ilə nümunə olan oğulları olur. Onlar Vətənin dar günündə öndə gedən, bütün çətinliklərə sinə gərən, sözü və əməli ilə igidliyin nə demək olduğunu göstərən şəxslərdir. Azərbaycan əsgəri vahid məfhum və yenilməz güc olaraq ali vəzifəsinin öhdəsindən layiqincə və ləyaqətlə gəlməyi bacardı. Sevinirəm ki, bu müqəddəs savaşın iştirakçısı olaraq mən də pay sahibiyəm. Azərbaycançılığın, hərbi vətənpərvərliyin, müasirliyin və peşəkarlığın şanlı ordusu bu gün də güclənməkdədir. Bölməmiz modern tələblərə cavab verən silahlara malikdir. Keçirilən müxtəlifmiqyaslı təlimlərdə iştirak edərək, öz ixtisasımızın nəzəri və praktiki incəliklərini gənc əsgərlərimizə də öyrədirik", - deyən zabit öz fikirlərini tamamladı.

Onunla həmsöhbət olduqdan sonra bir daha əmin oluruq ki, Kənan kimi minlərlə komandir ordu sıralarına yeni qoşulan əsgərlərimiz üçün parlaq bir nümunədir. Kapitan Zamanovun savadı, vətənpərvərliyi və igidliyi gənclərimiz üçün nümunədir. Belə təcrübəli gənc zabitlərimizin olması xalqımıza dayaq, ordumuza gücdür. Kənana gələcək xidmətində uğurlar arzulayırıq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

## *İctimai-siyasi hazırlıq*

# “Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanılması komandanlıq tərəfindən qarşımıza qoyulan vacib məsələlərdəndir”

*Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanılmasında və vətənpərvərlik ruhunun gücləndirilməsində keçirilən ictimai-siyasi hazırlıq məşğələlərinin rolu danılmazdır. Çünki Vətən müdafiəçisinin qələbə iradəsini qüvvətləndirən təkcə ona təhkim olunmuş silahı deyil, həm də qəlbində daşıdığı sonsuz Vətən sevgisi, tarixinə və kimliyinə olan dərin bağlılığıdır.*



Bu məqsədlə bölmələrdə günün nizam qaydalarına uyğun keçirilən ictimai-siyasi hazırlıq dərsləri xüsusi əhəmiyyət kəsb edir. Bu dərslər sayəsində hərbi qulluqçularımız hərb tariximizi, qəhrəman sərkərdələrimizin döyüş yolunu, şanlı zəfərlərimizi, bu zəfərlərin qazanılması naminə şəhid olmuş silahdaşlarımızın döyüş yolunu öyrənirlər. Bütün bunlar onların mənəvi-psixoloji hazırlığını artırır, döyüş ruhunu möhkəmləndirir.

"N" hərbi hissəsində ideoloji otaqda məşğələ prosesini izləyərkən hər bir detala verilən diqqət göz oxşayırdı. Otaqda Azərbaycan dövlətinin rəmzləri, tarixi, Ümummilli Lider Heydər Əliyevin portreti və ordu quruculuğu sahəsində gördüyü işləri əks etdirən materiallar yer almışdı. Müzəffər Ali Baş Komandanın işğaldan azad olunmuş ərazilərə səfərini və əsgərlərlə görüşlərini, Vətən müharibəsi zamanı çəkilmiş unudulmaz kadrları əks etdirən fotostendlər isə otağın ab-havasına daha da rəng qatırdı. Bölmədə təbliğat və təşviqat işinin yüksək səviyyədə aparıldığı ilk baxışdan hiss olunurdu. İctimai-siyasi hazırlıq dərsi baş leytenant Yasin İsayevin rəhbərliyi altında keçirilirdi. Dərsə başlamazdan əvvəl zabit məşğələnin mövzusunu şəxsi heyətə çatdırdı. Dərsin gedişatını diqqətlə izlədik. Məşğələ rəhbərinin mövzunu səlis və əhatəli şəkildə izah etməsi, əsgərlərimizin mövzu ilə bağlı verilən sualları dərhal cavablandırması bizdə xoş əhval-ruhiyyə yaratdı.

Baş leytenant Y.İsayev dərsi başa çatdırdıqdan sonra bildirdi ki, hərbi hissədə şəxsi heyətin vətənpərvərlik ruhunun yüksəldilməsinə xüsusi diqqət yetirilir. "Zabit olaraq ən ümdə vəzifəmiz əsgərlərimizin Vətəninə, xalqına, dövlətinə layiqli və bağlı fərdlər kimi formalaşmasında rol oynamaqdır. Azad edilmiş ərazilərdə xidmət edən əsgərlərimizin döyüş hazırlığı ilə bərabər, onların mənəvi-psixoloji vəziyyətinin də hər zaman yüksək səviyyədə saxlanılması komandanlıq tərəfindən qarşımıza qoyulan vacib məsələlərdəndir".

Dərs prosesi bitdikdən sonra şəxsi heyətin fikirlərini öyrənmək üçün onlarla həmsöhbət oldum. Əsgərlərimizin fikirləri onların keçirilən məşğələlərdən nə qədər faydalandığını bir daha göstərdi. Əsgər İlkin Vahabov bildirdi ki, hər bir hərbi qulluqçu öz xalqının tarixini dərindən bilməlidir. "Bu dərslər bizə həm tariximizi öyrədir, həm də döyüş əməliyyatlarında şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızı daha yaxından tanımağımıza imkan yaradır. Şəhidlərimizin, igid hərbçilərimizin xidmət yoluna nəzər saldıqca məsuliyyət hissimiz artır, Vətənə bağlılığımız daha da möhkəmlənir".

Əsgər Həsən Yaqubov isə ictimai-siyasi hazırlıq dərslərinin mənəvi-psixoloji duruma təsirini izah etdi. "Hər həftə keçirilən bu dərslər sayəsində həm mədəni irsimiz, həm də haqq savaşımız haqqında yeni biliklər əldə edirik. Məşğələlərdə Azərbaycanın tarixini, ordumuzun keçdiyi inkişaf yolunu, əzəli torpaqlarımızın azad olunması uğrunda həyata keçirilən əməliyyatlar zamanı igid oğullarımızın keçdiyi döyüş yolunu öyrənir, öz canlarını Vətən uğrunda fəda edən şəhidlərimizin həyat yolunu özümüzə örnək bilirik".

Əsgərlər Tahir Dadaşzadə, Murad Bədirov, Fərid İsmayıllı və digərləri də həm xidmətləri, həm də ictimai-siyasi hazırlıq dərslərinin mahiyyəti barədə fikirlərini bölüşərək, bu dərslərin onlarda Vətənə sədaqət hissini daha da gücləndirdiyini vurğuladılar.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

## “Minsk qrupu əvvəldən Qarabağ münaqişəsinin dondurulması ilə məşğul idi”

ATƏT-in Minsk qrupu əvvəldən Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə deyil, onun dondurulması ilə məşğul olurdu. Onun əsas vəzifəsi münaqişənin yenidən hərbi müstəviyə keçməsinin qarşısını almaq idi. Lakin bu vəzifəsinin öhdəsindən gələ bilmədi, çünki münaqişə həm 2016-cı ildə, həm də 2020-ci ildə yenidən hərbi mərhələyə keçdi və nəhayət, 44 günlük Vətən müharibəsində sonra Azərbaycan tam və qeyd-şərtsiz qələbə qazandı.

Bu fikri AZƏRTAC-a Milli Məclisin deputatı Rasim Musabəyov bildirib.

Politoloq xatırladıb ki, 2020-ci ildə ATƏT-in Minsk qrupunun həmsədrləri dəvət olunmadan Bakıda "peyda" oldular və Azərbaycan Prezidenti İlham Əliyev onları qəbul edərkən demişdi: "Mən Minsk qrupunu səfər etməyə dəvət etməmişdim. Amma mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, mən dedim: qoy gəlsinlər, mən etiraz etmirəm. Bəlkə mənə deyəcəkləri nəsə var".

"Məlum oldu ki, onların deyəcək heç nəyi də yox imiş. Bundan sonra həmsədrlər üçlüyünü yenidən diriltmək üçün müəyyən cəhdlər edildi, lakin sonradan başlayan Rusiya-Ukrayna müharibəsinə görə birgə səylərlə nizamlanma prosesinə qoşulmaq artıq mümkün olmadı", - deyə deputat vurğulayıb.

Agentliyin müsahibi qeyd edib ki, Rusiya müəyyən müddət bu vasitəçilik missiyasını təkbaşına icra etməyə çalışdı, sonra isə ovaxtkı Avropa Şurasının Prezidenti Şarl Mişelin timsalında Avropa İttifaqı belə bir təşəbbüs göstərdi. Lakin bütün bu cəhdlər nəticəsiz qaldı və tərəflər münasibətlərin tənzimlənməsi prosesini ikitərəfli formatda davam etdirdilər.

"Sonradan ABŞ-ın, ABŞ Prezidentinin dəstəyi əldə olundu - Vaşinqtonda Birgə Bəyannamə imzalandı və sülh müqaviləsinin mətni paraflandı. Görüşün nəticələrinə əsasən Minsk qrupunun buraxılması barədə qərar qəbul olundu və bu da həyata keçirildi", - deyə R.Musabəyov yekunda söyləyib.

## *Fiziki hazırlıq*

# Müntəzəm fiziki hazırlıq həm də yüksək döyüş hazırlığıdır



**(Əvvəli 1-ci səhifədə)**

Orduda fiziki hazırlığa, idmana daha çox zaman ayrılır. Bu da əbəs yerə deyil. Əsgər gələcəyin döyüşçüsüdür. Yaxşı döyüşçü güclü olmalıdır. Güclü olmaq üçün mütləq müntəzəm idmanla məşğul olmalısan. İllərin sınağı və döyüş təcrübəsi bunu deyir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Həsrət Zeynalov peşəkar idmançı olmasa da, həvəskardır. O, fiziki hazırlıq saatlarında idman şəhərciyində olur, qarşıya qoyulan idman çalışmalarını ruh yüksəkliyi ilə yerinə yetirir, silahdaşlarını da, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularını da idmana sövq edir. Həsrət deyir ki, əsgərlərlə birlikdə idman şəhərciyinə tez-tez gedir. Təyin olunmuş, yerinə yetiriləsi idman çalışmalarını nümunə üçün əvvəlcə özü yerinə yetirir. Turnikdə dartınma, dayaqda aşma, paralel qollarda qalxıb-enmə, press və başqa çalışmaları elə göstərir ki, əsgərlər idman çalışmalarını yerinə yetirməyə daha həvəsli olurlar.

Komandir həm öyrənən olmalıdır, həm də öyrədən. Çavuş Həsrət Zeynalov idman çalışmalarını əsgərlərə düzgün öyrətməklə yanaşı, onlarda idmana maraq da aşılamağı bacarır. İdman şəhərciyində əsgərlərdən Ruslan Abdullayev, Fərid Məmmədov, Sabir Nəcəfli və başqaları verilən fiziki normativləri səhvsiz yerinə yetirməklə komandirin rəğbətini qazanıblar. Əsgər Fərid Məmmədovun sözlərinə görə o, hərbi xidmətdən əvvəl idmanla məşğul olmayıb. Dağlıq rayonda kənd yerində yaşadığı üçün fiziki əməklə böyüyüb. Fiziki əmək onu həm güclü, həm də sağlam edib. Ordu sıralarında fiziki normativi yerinə yetirməkdə heç bir çətinlik çəkmir. Sadəcə çalışmanın tələblərə uyğun tətbiqində müəyyən səhvlərə yol verir. Artıq həmin çətinliklərin böyük hissəsinin arxada qaldığını deyir.

Əsgər Sabir Nəcəfli uşaq yaşlarından idmana getsə də, peşəkar idmançı olacağını heç vaxt arzulamayıb. Bəlkə də maraq göstərib müntəzəm idmanın istənilən növü ilə məşğul olsaydı, lazımi nəticə əldə edərdi. Buna gücü də çatacaqdı, potensialı da imkan verir. Onun peşəkar idmana marağı olmadığı üçün bu yoldan dönüb.

Əsgərlərin fərqli xarakteri və düşüncələri maraqlı idi. Onlar hərbi xidmət zamanı idmana, fiziki hazırlığa daha böyük maraq göstərməyə başlayıblar. Bu da bir növ komandirlərin əsgərlərdə idmana sevgi oyatmasından irəli gəlir.

Hər bir əsgərin başlıca məqsədi, verilən komandanı vaxtında və düzgün yerinə yetirməkdir. Əsgərlər yaxşı bilirlər ki, yüksək döyüş hazırlığı müntəzəm fiziki hazırlıqdan keçir. Bu səbəbdən də onlar fiziki hazırlıqlarını daha da artırmağa çalışırlar.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



## Yeni nəşrlər

# "İlham Əliyev: Müharibənin qalibi, sülhün müəllifi" kitabının təqdimatı keçirilib

*Respublika Veteranlar Təşkilatında "Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı" İctimai Birliyinin sədri polkovnik Cəlil Xəlilovun müəllifi olduğu "İlham Əliyev: Müharibənin qalibi, sülhün müəllifi" kitabının təqdimatı keçirilib.*



AZƏRTAC xəbər verir ki, tədbirdən öncə Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi anılıb.

Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü, Əməkdar jurnalist Varis Yolçuyev kitabın dünənimiz, bu günümüz və gələcəyimiz baxımından önəmini şərh edib.

Tədbirdə çıxış edən AMEA-nın müxbir üzvü Sudeif İmamverdiyev bildirib ki, Prezident İlham Əliyevin müharibə və postmüharibə dönəmindəki fəaliyyətindən bəhs edən kitabda dövlətçiliyimizin tarixi baxımından çoxsaylı faktlar yer alıb. Bu faktların gənc nəsil tərəfindən mənimsənilməsi vacibdir.

Vəkillər Kollegiyası Tədris Mərkəzinin direktoru Əmir Əliyev, yazıçı-publisist Şərəf Cəlilli, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının dekanı Elnur Əliyev, Modern İnkişaf və Ailə İctimai Birliyinin sədri Zərifə Quliyeva və "Tarixi şəxsiyyətlər" jurnalının baş redaktoru Xəlil Qarəhmədov çıxışlarında qeyd ediblər ki, gənc nəsil müasir biliklərə yiyələnməklə yanaşı, milli tarixi dərindən bilməli, Vətənin maraqlarını qətiyyətlə müdafiə etməyi bacarmalıdır. Natiqlər kitabın tarixi-siyasi önəminə



diqqət çəkib, nəşrin cəmiyyətdə maraqla qarşılanacağını əminliklə vurğulayıblar.

Sonda çıxış edən polkovnik Cəlil Xəlilov tədbir iştirakçılarına təşəkkür edib, Prezident İlham Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərinin heç zaman unudulmayacağını, hər zaman böyük sevgi və minnətdarlıq hissi ilə xatırlanacağını bildirib.

## Görkəmli şəxsiyyətlər

# Türkiyə Silahlı Qüvvələrində 30 il xidmət edən azərbaycanlı polkovnik Yunis Şəkərov (Xəzərli)

Yunis Məmməd bəy oğlu Şəkərov 1893-cü ildə Gəncədə anadan olub. Gəncədə yaşayan Şəkəroğulları nəslindən olan Yunis Şəkərovun atası Məmməd bəy, anası Gövhər xanım idi.

Yunis Şəkərov orta təhsilini bitirdikdən sonra Tiflisdəki hərbi məktəbə daxil olub. 1917-ci ildə hərbi məktəbi bitirib, Müsəlman Korpusunun piyada alayında taqım komandiri olaraq xidmətə göndərilib.

Müsəlman Korpusu Gəncəyə köçürüldükdən sonra 1918-ci ildə burada yaradılan Əlahiddə Azərbaycan Korpusunda xidmətini davam etdirib. Bir müddət Qafqaz İslam Ordusunun qərargahında poçt-teleqraf zabiti kimi xidmət edib. 1918-ci ilin iyununda 5-ci Qafqaz Diviziyasının 13-cü Piyada Alayının 1-ci bölüyünə taqım komandiri təyin olunub. Həmin ildə ona "poruçik" hərbi rütbəsi verilib.

Hərbi nazirin 24 dekabr 1918-ci il tarixli 26 nömrəli əmri ilə Qazax şəhərində dislokasiya edilmiş təlim piyada taboru komandirinin sərəncamına göndərilib. Təşkilati-ştat dəyişikliyi ilə əlaqədar olaraq Qazaxda dislokasiya edilmiş təlim piyada taboru 3-cü Gəncə piyada alayının tərkibinə 3-cü piyada taboru kimi daxil edilib. Onun xidmət yeri həmin alayda saxlanılıb. 1919-cu ildə ona növbəti "ştabs-kapitan" hərbi rütbəsi verilib. Hərbi nazirin 01 fevral 1920-ci il tarixli 62 nömrəli əmri ilə atıcı taborun komandiri vəzifəsinə təyin edilib.

Göyçayın, Ucarın, Ağsunun, Şamaxının, Qobustanın və Bakının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. 1920-ci ildə atıcı taborun komandiri kimi Zəngəzur döyüşlərinə qatılıb. Daha sonra Ağdam Mərkəz Komandanlığına təyin edilib.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra bolşeviklərə qarşı 1920-ci ilin mayında baş qaldıran Gəncə üsyanında iştirak edib. Bir neçə gün Gəncənin müdafiəsində iştirak etdikdən sonra Qarabağa gedib və burada



Qarabağ üsyanında iştirak edib.

Yunis Şəkərov üsyan məğlub olduqdan sonra ölkəni tərk edərək İran yolu ilə 2 iyul 1920-ci ildə Ərzuruma gəlib. Türkiyəyə gəldikdən sonra digər azərbaycanlı silahdaşları ilə birlikdə Türkiyə İstiqlaliyyət Savaşında iştirak edib. Qarsın azad olunması uğrunda döyüşüb. 1200 nəfərlik Azərbaycan birliyinin tərkibindəki 56 nəfər zabitdən biri olub.

Daha sonra Yunis Şəkərov Türkiyənin Gürcüstandakı səfirliyinə ezam olunub. Burada miralay Kazım Direkin tabeliyində bolşeviklərə qarşı təşkilatda fəaliyyət göstərib.

Türkiyə İstiqlaliyyət Savaşında göstərdiyi xidmətlərə görə "İstiqlal" medalı ilə təltif edilib.

Müharibədən sonra Qars, Ankara və Konyada hərbi xidmətdə olub. Şeyx Səid, Hazo, Haco, Dersim, Çapakçur üsyanlarının yatırılmasında iştirak edib. 1930-cu ildə baş vermiş Ağrı üsyanının yatırılmasında 2-ci taborun 7-ci bölüyünün komandiri kimi iştirak edib.

1934-cü il iyunun 21-də Türkiyədə qəbul edilən "Soyad qanunu"ndan sonra özünə "Xəzərli" soyadını götürüb.

1935-ci ildə Göksun hərbi komissarlığında, 1941-ci ildə diviziya əsgəri dairəsi qərargahında xidmət edib. Bir müddət Kırşehir hərbi komissarı vəzifəsini icra edib. Daha sonra Hadimköy 32-ci Alay Komandanlığına təyin olunub. 1949-cu ildə Uşak, Muş şöbə və dairə başqanlığı, 1950-ci ildə isə Kurtalan Konak Komutanlığından "albay" (polkovnik) rütbəsi ilə taqaüdə çıxıb.

Azərbaycan Kültür Dərnəyinin fəaliyyətində iştirak edib. 25 may 1958-ci ildə İstanbulda dərnəyin illik qurultayı keçirilib. Seçkilər nəticəsində Yunis Xəzərli idarə heyətinə üzv seçilib.

1965-ci il aprelin 5-də İstanbulda dünyasını dəyişən Yunis Xəzərli hərbi təntənə ilə Əyyub Sultan (Eyüpsultan) məzarlığında dəfn edilib.

O, 1923-cü ildə Səadət xanımla ailə qurub. Bu evlilikdən Merfua, Oral, Baykal, Ümran adlı övladları dünyaya gəlib.

**"Azərbaycan Ordusu"**

# "Hərbi xidmətin hər anı səmərəli keçir"

Hərbi hissələrdə günün nizam qaydalarına ciddi əməl olunduğu hər kəsə yaxşı məlumdur. Səhər "Qalx!" komandasından axşam "Yat!" komandasına qədər olan vaxtı əsgərlərin sağlamlığı, təmizliyi, təlim-tərbiyəsi və başqa istiqamətlər üzrə bölüşdürülüb. Şəxsi heyətin birbaşa komandir heyəti və növbətçilər günün nizam qaydalarına əməl olunmasına bilavasitə cavabdeh şəxslərdirlər. Bölmələrdə əsgərlər şəxsi gigiyena qaydalarına da ciddi yanaşırlar. Hər bir əsgərin sağlamlığını həm də onun təmizliyində görürlər. Əlbəttə, təmizlik ən öndə duran məsələdir. Əsgərin üst-başı daim təmiz olmalıdır. Yataq yeri, çarpayısı da həmçinin. Bir çox hallarda əsgərlər fiziki məşğələlərdən, taktiki təlimlərdən qayıdanda onların fərdi təmizliyinə də birbaşa komandirlər nəzarət edirlər. Əgər bu cür vaxtlı-vaxtında nəzarət olunmasa, bölmədə nizam-intizamdan, yüksək döyüş hazırlığından danışmağa dəyməz.



Həmsöhbətim baş leytenant İslam Mustafayev dedi:

- Təcrübə göstərir ki, əsgərlər eyni vaxtda eyni tapşırıqları yerinə yetirməlidirlər. Belə olmasa, pərakəndə şəkildə görülən işin keyfiyyəti olmayacaq. Ona görə də əsgərlərə həm şəxsi gigiyenaya, həm səhər idmanına, həm də ümumi (ərazini, kazarmanı) təmizliyə vaxt ayrılır. Həmin müddət ərzində tələb olunan işlər başa çatdırılmalıdır.

"Əsgərlərin məşğələlərlə yanaşı, taktiki, çöl təlimləri də olur. Onlar taktiki təlimlərdən asılı olaraq bəzən də günlərlə çöl-səhra şəraitində qalırlar. Əsgərlərin çöl şəraitində yaşamaqları üçün tərtib olunan nizam qaydaları var. Biz bu qaydaları əsgərlərə öyrədirik", - deyə İslam sözünə davam etdi:

- Biz əsgərlərdən yalnız intizam və xidmət tələb etmirik. Həm də onlara asudə vaxtlarının səmərəli keçirilməsini təşkil edirik. Əsgərlər arasında yaxşı idmançılar, rəssamlar, heykəltəraşlar, musiqiçilər, şairlər var. Onları fərdi bacarıqlarına görə ayırırıq. Əsgərlər burada da öz istedadlarını nümayiş etdirirlər.

Asudə vaxtın səmərəli təşkili üçün yarışlar təşkil edirik. Stolüstü idman oyunları, rəsm əsərləri, şeir müsabiqələri əsgərlərin marağına səbəb olur. Əsgərlər asudə vaxtında musiqiyə qulaq asmağı, rəqs etməyi də xoşlayırlar. Bunun üçün səs gücləndiricimiz var və milli oyun havaları ilə əsgərlər birlikdə rəqs edirlər. Bir sözlə, burada hərbi xidmətin hər anı səmərəli keçir.

Zabit İslam Mustafayevin sözlərinə görə əsgərlər üçün hər cür şərait yaratmağa çalışırlar. Təki onlar hərbi xidmət dövründə intizamlı, nəzəri və praktiki bilikləri dərindən mənimsəsinlər. Belə olduğu halda bölmələrin döyüş hazırlığı da, vətənpərvərlik ruhu da yüksək olur. Bütün hazırlıqlar qədər asudə vaxtın səmərəli təşkili də önəmlidir. Bu zaman əsgərin təlimdə, fiziki hazırlıqdakı yorğunluğu asudə vaxtında təşkil olunan yarışlarda, əyləncələrdə aradan qalxır, onun ruhu qidalanır, dincəlir. İnsan üçün fiziki gərginlikdən sonrakı istirahət çox önəmlidir. Asudə vaxtı da məhz bunun üçündür.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Naxçıvanda şəhidlərin anım mərasimləri keçirildi





Kəngərli rayonunda Vətən müharibəsi şəhidi Vüqar Rza oğlu Əsgərovun doğum günü münasibətilə anım tədbiri keçirildi.

Tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, həmçinin Vətən uğrunda şəhid olan vətəndaşlarımızın xatirələri bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Çıxış edən Kəngərli rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov Vüqar Əsgərovun şərəfli həyat yolundan, döyüşlərdə göstərdiyi igidlik və fədakarlıqdan danışdı. O vurğuladı ki, məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, rəşadəti ordumuzun gücü, şəhidlərimizin qanı və döyüşlərdə yaralananların şücaəti sayəsində bu gün Azərbaycan xalqı azad, suveren və qalib ölkənin vətəndaşı kimi qürurla yaşayır.



Tədbirdə iştirak edən şəhid atası Habil Cəfərov şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirdi. O, Vətən uğrunda canını fəda edən oğullarımızın xatirəsinin əbədi olduğunu, hər birinin Azərbaycanın qürur mənbəyi kimi yaddaşlarda yaşayacağını diqqətə çatdırdı.

Digər çıxış edənlər şəhid ailələrinin fədakarlığından, Vətən uğrunda canından keçən igid Vətən oğullarının döyüş yolundan danışdılar.

Çıxışlardan sonra şəhid Vüqar Əsgərovun xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirildi.

Tədbir Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin şagirdlərinin hazırladığı vətənpərvərlik ruhunda ədəbi-bədii kompozisiya ilə yekunlaşdı.

* * *

Şahbuz şəhərində 44 günlük Vətən müharibəsinin şəhidi baş leytenant İlkin Muradlının anım mərasimi keçirildi.

Tədbirdə Şahbuz rayon İcra Hakimiyyətinin əməkdaşları, şəhid ailələri, müharibə iştirakçıları və hərbçilər iştirak etdilər.

Mərasimdə qeyd olundu ki, İlkin Muradlı 27 sentyabr 1995-ci ildə Şahbuz şəhərində anadan olub. Heydər Əliyev adına Hərbi Liseydə və daha sonra indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb. 2017-ci ildə leytenant rütbəsi ilə xidmətə başlayıb. Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə yüksələn İlkin Muradlı ölümündən sonra "Vətən uğrunda", "Döyüşlərdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Sonda məktəblilər tərəfindən vətənpərvərlik mövzusunda şeirlər səsləndirildi.

* * *

Babək şəhərində şəhid leytenant Şükür Bayram oğlu Hacıyevin anım günü ilə əlaqədar tədbir keçirildi. Tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni səsləndirildi.

Babək rayon İcra Hakimiyyətinin başçısı Ovni Muradov çıxış edərək bildirdi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrimizin peşəkarlığı ilə torpaqlarımız işğaldan azad olundu. O, şəhidlərimizin qanı və canı bahasına qazanılmış zəfərin Azərbaycan xalqının yaddaşında əbədi yaşayacağını vurğuladı.

Digər çıxış edənlər də Şükür Hacıyevin həyatı və döyüş yolundan söz açdılar. Bildirildi ki, Şükür Bayram oğlu Hacıyev 25 avqust 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının Babək şəhərində anadan olub. 2005-ci ildə Babək şəhər tam orta məktəbin 1-ci sinfinə daxil olub, 8-ci sinfi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi Liseydə təhsil alıb. 2016-cı ildə Hərbi liseyi bitirdikdən sonra indiki Heydər Əliyev adına Hərbi İnstituta daxil olub. Azərbaycan Ordusunun leytenantı olan Şükür Hacıyev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak edib. 12 oktyabr 2020-ci ildə şəhidlik zirvəsinə ucalıb. O, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin anası Fatma Şükürova çıxış edərək tədbir iştirakçılarına göstərilən diqqətə görə minnətdarlığını bildirdi.




* * *

Şərur rayonunda şəhid leytenant Cavid Əşrəf oğlu Nuruyevin anım günü münasibətilə Şəhidlər xiyabanında tədbir keçirildi. Tədbirdə yerli hakimiyyət və dövlət orqanlarının əməkdaşları, hərbi qulluqçular, şəhid ailələri və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Bildirildi ki, Cavid Nuruyev gənc yaşlarından Vətən sevgisi, mərdliyi və cəsarəti ilə seçilirdi. Xidmət dövründə o, güclü iradəsi, dəqiqliyi, intizamı və yüksək döyüş hazırlığı ilə komandirləri və silahdaşları tərəfindən daim hörmətlə qarşılanıb. Cavidin fədakarlığı, Vətənə sədaqəti, qarşıya qoyulan tapşırıqları uğurla icra etməsi onun hər kəsin yaddaşında igid, nümunəvi zabit kimi qalmasına səbəb olub. Ölümündən sonra o, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.




* * *

İkinci Qarabağ müharibəsində savaşaraq igidlik nümayiş etdirənlər arasında Sədərək rayonundan olan igidlərimiz də az deyil. Onlardan biri də şəhid leytenant Ərtoğrul Hümbət oğlu Nadirlidir.

Şəhidin anım günü münasibətilə Sədərək rayon Şəhidlər xiyabanında tədbir keçirildi.

Tədbirdə çıxış edən rayonun icra başçısı Naim Cahidzadə ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçən bütün şəhidlərin xalqımızın qəlbində əbədi yaşayacağını bildirdi.

Digər çıxış edənlər isə qeyd etdilər ki, Ərtoğrul 31 mart 1997-ci ildə Sədərək rayonunun Qaraağac kəndində anadan olub. 2012-ci ildə Naxçıvandakı Heydər Əliyev adına Hərbi Liseyə daxil olub, 2015-ci ildə oranı əla qiymətlərlə bitirib. Daha sonra indiki Heydər Əliyev adına Hərbi İnstituta daxil olub. 2019-cu ildə buranı bitirərək "leytenant" rütbəsi ilə bölgələrimizin birində xidmətə başlayıb. 27 sentyabrda başlayan İkinci Qarabağ müharibəsində iştirak edən Ərtoğrul oktyabrın 2-də Murovdağda düşmən snayperindən açılan atəş nəticəsində şəhid olub. 52 gün sonra nəşi tapılan şəhid Ərtoğrul Nadirli 26 noyabrda Sədərək rayonunun Şəhidlər xiyabanında dəfn olunub. Ölümündən sonra o, Azərbaycan Respublikası Prezidentinin 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin atası Hümbət Nadirli çıxış edərək oğlunun uşaqlıq illərindən, Vətənə bağlılığından və hərbçi olmaq arzusundan danışdı. Bildirdi ki, Ərtoğrul daim elmə, intizama və Vətən sevgisinə önəm verən, məqsədinə doğru qətiyyətlə irəliləyən bir gənc olub. Şəhid atası onlara göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə, eləcə də tədbirin təşkilatçılarına dərin minnətdarlığını ifadə etdi, oğlunun xatirəsini əziz tutan hər kəsə təşəkkürünü bildirdi.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Həmrəyliyimiz - birliyimizin və varlığımızın qarantıdır. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.

**Suallar:**

**1. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür.**

**2. Dünya azərbaycanlılarının vahid birliyinin bərqərar olunması.**

### 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür

Hər bir xalqın milli varlığını şərtləndirən əsas amillərdən biri onun etnik-siyasi mütəşəkkilliyi, milli həmrəyliyidir. Azərbaycanlılar minilliklər boyu özlərinin tarixi torpağı olan Azərbaycan ərazisində yaşayaraq, bəşər sivilizasiyasına böyük töhfələr veriblər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanıb, azərbaycanlıların bir qismi yurd-yuvalarından didərgin salınıb, deportasiyalara məruz qalıb, iş tapmaq, təhsil almaq məqsədilə doğma Vətəni tərk edərək başqa ölkələrdə məskunlaşıblar.

Ölkəmizin Sovet Rusiyası tərəfindən işğalından sonra uzun bir dövr Vətəndə yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənliləri ilə görüşmək, əlaqələr yaratmaq imkanından məhrum olublar. Sovet rejiminin zəifləməyə başladığı 1989-cu illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı. 1989-cu ildə Azərbaycan Xalq Hərəkatının fəalları azərbaycanlıların yaşadığı tarixi ərazini ikiyə bölən keçmiş SSRİ və İran sərhədinin Naxçıvan Muxtar Respublikasının Ordubad və Şərur rayonları arasındakı hissəsini sökdülər. Son iki yüz ildə ilk dəfə olaraq indiki İran ərazisində və Azərbaycan Respublikasında yaşayan azərbaycanlılar Araz çayını keçərək görüşdülər. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi və qeyd olunan Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi.

Tarix dəfələrlə sübüt edib ki, milli birliyi formalaşdırmaq, eyni hədəf uğrunda mübarizəni təmin etmək üçün böyük liderlərə ehtiyac duyulub. 16 dekabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Bu müqəddəs missiyanı həyata keçirən müstəqil Azərbaycan Respublikasının qurucusu Ulu Öndərin çoxmilyonlu azərbaycanlıları birləşdirmək istəyi, arzusu, amalı, bu tarixi hadisənin bünövrəsini qoymuşdur.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Həmrəylik Günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilib. İndi Həmrəylik Gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət və Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Həmrəylik bayramı ilk növbədə azərbaycançılıq ideologiyasına söykənir. Son illərdə bu ideologiya müstəqil Azərbaycanın çiçəklənməsində və dünya azərbaycanlılarının özünüdərkinə təkan verən güclü bir amilə çevrilmişdir. Dünyanın hər yerindən səsi gələn həmvətənlərimizin isə azərbaycançılıq amalı ətrafında milli birlik, həmrəylik nümayiş etdirir və bütün bacarıqlarını ümummilli məqsədlər naminə səfərbər edirlər.

Azərbaycançılıq ideologiyası ətrafında birləşən hər bir soydaşımız harada yaşamasından asılı olmayaraq ana Vətənin inkişafına onun dünya birliyində layiqli yer tutmasına və tanınmasına mədəniyyətimizin təbliğinə, ölkəmizlə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyi özünə mənəvi borc sayır.

### Dünya azərbaycanlılarının vahid birliyinin bərqərar olunması

Qədim tarixə malik xalqımız bu əlamətdar bayramı uzun illərdən bəri yaranmış, qorunub saxlanılmış ənənələrinə, mədəniyyətinə, tarixi köklərinə xas olan xoş amallarla, duyğularla keçirir. Bu bayram ildən-ilə daha geniş vüsət alır, ürəklərində Vətən eşqi, milli-mənəvi birlik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək alır. İlk dəfə həmrəylik və birlik arzuları ilə dillərə gətirilən və rəsmiləşdirilən bu bayram ürəklərdə uzun illərdən bəri qorunan azadlıq və birlik hisslərinin təzahürüdür.

Ulu Öndər Heydər Əliyevin ölkəmizdə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan dünyanın müxtəlif ölkələrində məskunlaşmış soydaşlarımız üçün milli iftixar mənbəyi, mənəvi dayaq və güc mənbəyi olmuşdur. Dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktualdır. Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ulu Öndərin uzaqgörənliyi xalqı öz ətrafında birləşdirməyə qadir olduğunu nümayiş etdirdi. Ulu Öndər Heydər Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə xarici ölkələrdə yaşayan azərbaycanlılara müraciətində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli-azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən Həmrəylik Günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla azərbaycanlı yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya Azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultayda dərin məzmunlu nitq söyləyən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirmişdir. "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürür mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" Ulu Öndərin bu kəlamları hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında birləşməsi və güclü diasporumuzun yaradılması siyasətini Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev uğurla davam etdirir. Soydaşlarımız Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir və cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi heyrətamiz uğurlarla fəxr edirlər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 8 fevral 2006-cı il tarixli Sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs vermişdir. Azərbaycan Diasporunun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir.

Dünya Azərbaycanlıları Koordinasiya Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilmiş iclası, toplantıda Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasının qəbulu, birlik və mütəşəkkilliyinin artması, tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsi, diaspor potensialının möhkəm amilə çevrilməsini göstərməklə yanaşı, müstəqil Azərbaycanın bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzi olduğunu da bir daha təsdiqlədi.

Həmrəylik Günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Bu birliyi Vətən müharibəsində, Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirlərində bir daha gördük. Ermənistan silahlı qüvvələri dəfələrlə Azərbaycan ərazisində hərbi təxribatlar törətdi və hər dəfə Azərbaycan Ordusu bu hücumların qarşısını qətiyyətlə aldı. 2020-ci ilin 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini raket atəşinə tutması İkinci Qarabağ müharibəsinin başlamasına səbəb oldu. Xalq müharibənin ilk günündən dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu siyasəti nəticəsində torpaqlarımızın işğaldan azad ediləcəyinə əmin idi. İkinci Qarabağ müharibəsi bu əminliyi bir daha təsdiqlədi. Öz liderinin ətrafında dəmir yumruq tək birləşən xalq ordusuna arxa-dayaq oldu, düşmən bu gücün qarşısında cəmi 44 gün dayana bildi. 30 ilə yaxın işğalda olan Azərbaycan torpaqları azad edildi. 44 gün davam edən Vətən müharibəsindən sonra Qarabağ iqtisadi rayonunda yaşayan etnik ermənilərin məskunlaşdıqları ərazilərdəki qondarma rejiminin törtöküntülərinin, qeyri-qanuni hərbi birləşmələrin və onları himayə edən separatçıların müharibədən keçən zaman ərzində həyata keçirdikləri təxribatları ölkəmizə sözügedən bölgədə lokal xarakterli antiterror tədbirləri həyata keçirməkdən başqa çıxış yolu qoymurdu. Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19-20 sentyabr 2023-cü ildə Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Azərbaycan Ordusu Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdiyi kimi, 23 saat davam edən antiterror tədbirləri keçirməklə düşməni ağ bayraq qaldırmağa məcbur etməsi bir daha bizim gücümüzü bütün dünyaya göstərdi. Dövlət başçısının vətənpərvərliyi xalqımızı torpaqlarımızın azadlığı uğrunda mübarizədə həmrəy etdi. Siyasi əqidəsindən, statusundan, vəzifəsindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı milli həmrəylik nümayiş etdirdi. Dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar tarixdə görünməmiş dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin eşidilməsi üçün səylərini əsirgəmədilər.

2022-ci ildə Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı Şuşada keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonağın qatıldığı qurultaydakı nitqində demişdir: "...Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilib. O, dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdi və demişdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir...".

Azərbaycan dövlətinin diaspor siyasəti həmvətənlərin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların da mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Azərbaycanlıların yaşadıqları hər bir ölkədə bir neçə diaspor təşkilatı var və bu təşkilatlar arasında koordinasiya işi aparılır, birlik, həmrəylik var. Biz ölkə daxilində də, xaricində də birlik nümayiş etdirməliyik və unutmamalıyıq ki, gücümüz birliyimizdədir. Bu gün Azərbaycanda vətəndaş cəmiyyəti birlik nümayiş etdirərək, vahid amal uğrunda çalışır. Ölkəmizin gələcəyi ilə, strateji istiqamətlə bağlı cəmiyyətimizdə fikir ayrılığı yoxdur. Dövlət müstəqilliyi, iqtisadi müstəqillik, sosial məsələlərin həlli və digər məsələlər ətrafında cəmiyyətdə vahid fikir var.

Bu gün hər bir azərbaycanlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələrə doğru inamla addımlayacağına tam əmindir. Bu həmrəylik bizi yeni-yeni qələbələrə aparacaq.

31 Dekabr - Azərbaycan xalqının tarixində ən yadda qalan, birliyimizin təcəssümü olan - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Sağlam bədəndə sağlam ruh olar*

# İdmançılarımızı tanıyaq



## *Əsgər Amin Heydərli*

***2022-ci ildə Bakıda və Gürcüstanda keçirilən idmanın qaydasız döyüş növü üzrə yarışlarda fəxri kürsünün ən yüksək pilləsinə layiq görülüb.***

***"Döyüş meydanında çevik, möhkəm, dözümlü olmaq və verilən tapşırıqları cəld yerinə yetirmək üçün fiziki cəhətdən hazırlıqlı olmalıyıq. Ona görə də məşğələlərdə həvəslə iştirak edirik".***



## *Əsgər Nicat Zairov*

***2022-ci ildə ölkəmizdə keçirilən idmanın ağır atletika növü üzrə yarışda fəxri kürsünün ən yüksək pilləsinə layiq görülüb.***

***"Fiziki hazırlığımızın daha da artırılması üçün bizə yüksək şərait yaradılıb. Məşğələlərdə həvəslə və yorulmadan idmanla məşğul oluruq".***

**"Azərbaycan Ordusu"**

## Naxçıvan Hərbi Kollecinin kursantları sərgini ziyarət ediblər



Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecinin kursantları "Konstitusiya və Suverenlik İli" münasibətilə təşkil olunan "Füyuzat" jurnalının üz qapaqlarından ibarət sərgini ziyarət ediblər.

Sərgidə kursantlara Azərbaycan mətbuatının inkişafında xüsusi yeri olan "Füyuzat" jurnalının yaranma tarixi, ideoloji istiqamətləri və milli maarifçilik hərəkatındakı rolu barədə geniş məlumat verilib.

Milli Müdafiə Universiteti xəbər verir ki, tədbirdə Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondunun direktoru və əməkdaşları, həmçinin tarix elmləri doktoru, professor Sevinc Abbasova çıxış edərək jurnalın tədqiqat dəyəri, milli düşüncənin formalaşmasındakı əhəmiyyəti və müasir dövrdə ideoloji baxımdan aktuallığı barədə kursantları məlumatlandırıblar.

Çıxışlar zamanı "Füyuzat" məktəbinin Azərbaycan publisistikasının inkişafına verdiyi töhfələr, milli kimlik, vətənpərvərlik və maarifçilik ideyalarının gənc nəslin dünyagörüşündə yaratdığı təsirlər xüsusi vurğulanıb.



Kursantlar sərgidə nümayiş olunan nadir üz qapaqları və arxiv materialları ilə yaxından tanış olaraq jurnalın tarixi irsi haqqında daha dolğun təsəvvür əldə ediblər.

Sonda sərgi nümayəndələri və kursantlar birlikdə xatirə şəkli çəkdiriblər.

# Xəbərlər: hadisələr, faktlar



### Latviya Ukraynaya 42 ədəd zirehli transportyor tədarük edib

Latviya Kiyevə 42 ədəd "Patria" zirehli transportyorunun tədarükünü başa çatdırıb.

Baltikyanı respublikanın xarici işlər naziri Bayba Braje bu barədə özünün sosial media hesabında yazıb. "Latviya Ukrayna ordusuna 42 ədəd "Patria" 6x6 zirehli transportyorunun tədarükünü başa çatdırıb", - deyə nazir bildirib. Onun sözlərinə görə, zirehli transportyorların tədarükü Latviyanın hər il ümumdaxili məhsulunun 0,25 faizini Ukraynaya hərbi yardım üçün ayırmaq öhdəliyini təsdiqləyir.

2019-cu ildə Finlandiya və Latviya müasir zirehli transportyorların hazırlanması üçün müştərək proqrama başlayıblar. Proqramda, həmçinin İsveç və Almaniya da iştirak edir. Finlandiya Müdafiə Nazirliyinin məlumatına görə, layihə çərçivəsində Helsinki 164, Latviya 250-dən çox, İsveç isə ümumilikdə 321 zirehli transportyor sifariş verib.

### ABŞ administrasiyası yeni B-2 strateji bombardmançı təyyarələri sifariş edir



ABŞ Prezidenti Donald Tramp administrasiyanın yeni B-2 Spirit gizli strateji bombardmançı təyyarələri sifariş etdiyini açıqlayıb.

Hərbçilərlə videokonfrans zamanı Tramp bu ilin yayında İrana qarşı həyata keçirilmiş əməliyyatın B-2 bombardmançılarında istifadə olunan gizli texnologiya sayəsində uğurlu alındığını bildirib. "Mən həmin pilotlara, mexaniklərə və B-2 bombardmançılarına xidmət edən bütün insanlara təşəkkür edirəm. Biz sadəcə olaraq bu təyyarələrdən daha çoxunu sifariş etdik", - Ağ Ev rəhbəri qeyd edib.

Prezident əlavə edib: "Onlar təyyarələrin uçduğunu bilirdilər, amma heç kim onları görə bilmədi".

Noyabrın 11-də Arlinqton qəbiristanlığında etdiyi çıxışında Tramp ABŞ-ın B-2 strateji bombardmançılarının bir partiyasını sifariş etdiyini bildirmişdi. Oktyabrda isə o, ABŞ-ın bu tipdən 28 ədəd təyyarə sifariş etdiyini açıqlamışdı. Lakin Arlinqtondakı çıxışında da, noyabrın 27-dəki müraciətində də Tramp söhbətin həmin əvvəlki partiyadan, yoxsa yeni sifarişdən getdiyini dəqiqləşdirməyib.



### Danimarka Müdafiə Nazirliyi "Rheinmetall" şirkətindən minə yaxın yük maşını almaq istəyir

Danimarkanın Müdafiə Nazirliyinin Təchizat və Logistika İdarəsi (FMI) "Rheinmetall" şirkətinə HX və TG hərbi yük maşınlarının tədarükü üçün müqavilə təqdim edib.

"Rheinmetall" şirkətinin yaydığı məlumatda müqaviləyə əsasən, Danimarkanın minə yaxın yük maşını almağı planlaşdırdığı qeyd olunub. İlk sifarişdə artıq 100-dən çox nəqliyyat vasitəsi yer alıb. Yeni yük maşınlarından ağır piyada briqadasının qurulması üçün istifadə olunacaq. Nəqliyyat vasitələrinin 2027-ci ilin sonunadək çatdırılması planlaşdırılır. Sifarişə, həmçinin texniki xidmət, ehtiyat hissələri və operatorların təlimləri daxildir. Mövcud hərbi flota üçün xidmət müqaviləsi isə dörd il müddətinə uzadılıb.

"Rheinmetall"ın sınaqdan çıxmış və çətin relyefdə yüksək manevr qabiliyyətinə malik HX modeli maksimum möhkəmliyi və etibarlılığı ilə seçilir. İstismar müddəti 20 ildən çox nəzərdə tutulan bu texnika hərbi və təhlükəsizlik orqanları üçün ən çox yayılmış yük maşınlarından biridir. Bu nəqliyyat vasitəsi Avropa İttifaqı və NATO ölkələrində də xidməti istifadədədir.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman



### Azərbaycan boksçusu Avropa çempionu olub

Azərbaycan boksçusu Sübhan Mamedov (50 kq) U-23 Avropa çempionatının qalibi olub.

Millinin lideri finalda Maksim Rudiki (Ukrayna) məğlub edib.

Hər 3 raundu xeyrinə bitirən Mamedov yekunda 4:1 (28:29, 29:28, 29:28, 30:27, 30:27) hesabı ilə qalib gələrək Avropa çempionu tituluna yiyələnib. Beləliklə, Elbrus Rzayevin rəhbərlik etdiyi milli komanda Avropa çempionatını 3 medalla başa vurub. Mamedovdan öncə Tağı Nəsibov (60 kq) və Səbuhi Əlizadə (+90 kq) bürünc mükafata sahib olub.

Avropa çempionatında 33 ölkədən 271 boksçu mübarizə aparırdı.

### Dünya çempionatı: Azərbaycan karateçisi bürünc medal qazanıb



Azərbaycanın qadın karateçisi İrina Zaretska Misirin paytaxtı Qahirədə keçirilən dünya çempionatında medal qazanıb.

68 kiloqram çəki dərəcəsində çıxış edən idmançı 3-cü yer uğrunda görüşdə qalib gələrək bürünc mükafata sahib çıxıb.



### "Böyük Dəbilqə": Azərbaycan cüdo millisi yarışı bir medalla başa vurub

Birləşmiş Ərəb Əmirliyinin paytaxtı Əbu-Dabidə keçirilən "Böyük Dəbilqə" turniri başa çatıb.

Azərbaycan millisi Dünya Cüdo Turuna daxil olan yarışda bir medal qazanıb.

Son yarış günündə +100 kiloqram çəki dərəcəsində çıxış edən Uşanqi Kokauri bürünc mükafata yiyələnib. Cüdoçumuz həlledici görüşdə Niderland təmsilçisi Yur Spaykersi ipponla məğlub edərək fəxri kürsüyə yüksəlib.

Əhməd Yusifov (60 kq), Murad Fətiyev (90 kq) və Camal Qamzatxanov (+100 kq) turniri 5-ci yerdə başa vurublar.

İlk üç qarşılaşmasında qələbə qazanan Murad Fətiyev zədələndiyi üçün yarımfinal mərhələsində mübarizəni davam etdirə bilməyib.

### Lionel Messi dünyanın ən çox məhsuldar ötürmə edən oyunçusu olub



Argentina millisinin və ABŞ-ın "İnter Mayami" klubunun kapitanı Lionel Messi yeni rekorda imza atıb.

38 yaşlı futbolçu dünyanın ən çox məhsuldar ötürmə edən oyunçusu olub.

Təcrübəli hücumçu bunu MLS-in Şərq Konfransının pley-off mərhələsində "Nyu-York Siti" ilə final matçında (5:1) assist etməklə bacarıb. Peşəkar karyerasında məhsuldar ötürmələrin sayını 405-ə çatdıran ulduz futbolçu macarıstanlı Ferens Puşkaşı geridə qoyaraq, bu nominasiya üzrə bütün zamanların ən yaxşısı olub.

Qeyd edək ki, "İnter Mayami" MLS-də mövsümün həlledici oyununu Qərb Konfransının qalibi olan Kanadanın "Vankuver" klubuna qarşı keçirəcək. Çempionluq matçı dekabrın 6-da reallaşacaq.

**AZƏRTAC-ın materialları əsasında**

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

Lisenziya № **361**
Sifariş № **815**
Nüsxə **3665**